**AZƏRBAYCAN RESPUBLIKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**Q Ə R A R I**

**Bakı şəhəri** **№ 259/2** **27 dekabr 2014-cü il**

**"Audit sahəsində qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi" haqqında**

"Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf Konsepsiyasında (2012-2020-ci illər)" və Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planının 1.14-cü və Palata Şurasının 2014-cü il üzrə iş planının 28-ci bəndlərinə müvafiq olaraq hazırlanmış "Audit sahəsində qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi"nə dair hesabatı müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** "Audit sahəsində qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi haqqında" Hesabat nəzərə alınsın (Hesabat əlavə olunur).
**2.** Auditorlar Palatasının struktur bölmələrinə (Q.Bayramov, F.Qarayev, N.Talıbov, S.Gülməmmədov, M.Abbasov, V.Rəhimov, R.Cəfərov) və Palatanın Şurası yanında fəaliyyət göstərən müvafiq komitələrə (İ.Bayramov, E.İbrahimov, N.Abbaslı, L.Bayramova, F.Mustafayev, Y.Salayev, A.Qurbanov) tapşırılsın ki, müstəqil audit sahəsində qabaqcıl xarici təcrübənin öyrənilməsi və tətbiqi istiqamətində işləri daha da canlandırsınlar.
**3.** Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramova tapşırılsın ki, "Audit sahəsində qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi" haqqında Hesabatın KİV-də işıqlandırılmasını təmin etsinlər.
**4.** Sədrin müşaviri F.Qarayevə və Aparatın İnformasiya texnologiyaları üzrə mütəxəssisi R.Ələkbərova tapşırılsın ki, bu qərarın və Hesabatın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V. NOVRUZOV**